# Bəstəkar müğənni

Xalqın sevimlisi olaraq dərin rəğbət qazanmaq sənət adamı üçün böyük xoşbəxtlikdir. Əlbəttə, bu heç bir sənət adamına asan başa gəlmir. Burada istedadla bərabər, illərlə çalışmaq, öz üzərində işləmək, çətin yolları addımlayıb keçmək, xalqın tələbatını ödəyərək onun zövqünü oxşamaq, ömrün hər anını, hər səhifəsini sevib-seçdiyi sənətə həsr etmək lazım gəlir. Belə sənətkarlardan biri haqqında mövzu başlamaq zənnimcə oxucular üçün maraqlı olar. Axı o, sıradan bir sənətkar deyil, nəğməkar müğənnidir. Gənclik illərindən bu günə qədər xalq bayatılarına, şairlərimizin sözlərinə nə qədər mahnılar bəstələyib və hətta bəzi melodiyalarına özü söz yazıb. Mahnıları o qədər çoxdur ki, sayını özü də bilmir, hansını hansı ildə bəstələdiyini xatırlamır. Bu mahnıların əksəriyyəti radioda, televiziyada, qrammafon vallarında, kasetlərdə, disklərdə səsləndiyi andan xalq tərəfindən sevilmiş və bu günə qədər yaşamışdır. Belə mahnılar toyların, konsertlərin daimi repertuarına daxil olaraq müğənnilər tərəfindən illərlə oxunub və indi də oxunmaqdadır. Bu sətirlərin müəllifi xalq musiqiçisi olaraq sənət işlətdiyi dövrdə istər konsertlər, istərsə də toylarda çıxış edərkən müğənnilərin oxuduğu həmin mahnıları müşayiət etmişdir.

Niyaməddin Cabbar oğlu Musayev 1940-cı il iyunun 1-də İmişli şəhərində anadan olub. Onun 1 yaşı olarkən atası dünyasını dəyişib. Anası Xınaş Mənəf qızı Musayeva (1911-1988) övladlarını o çətin dövrdə min-bir zəhmətlə böyütmüşdür. Bu nəsildə musiqiçi olmayıb. Ata tacir olub. Böyük qardaş İnqilabın (1933-1975) çox gözəl, təpərli səsi olub, əla oxuyub, lakin sənətə gəlməyib. O, Xalq Təsərrüfatı İnstitutunu bitirmişdi, ticarətdə çalışırdı. Niyaməddin deyir ki, İnqilab oxuyanda mən məəttəl qalırdım. Niyaməddin uşaqlıqda tütək, balaban, qarmon çalıb. Bu çalğı alətlərinə azca bələd olması sonralar onun fortepiano ilə mahnı bəstələməsinə gətirib çıxarıb.

Onun söhbətlərindən: "Mən ümumtəhsil məktəbə 6 yaşımdan getmişəm. Dərslərimi yaxşı oxuyurdum. Məktəbi 1957-ci ildə bitirdim. Ağlım kəsəndən məktəbin və İmişli mədəniyyət evinin özfəaliyyət ansamblında oxuyurdum. Eşidən, bilən səsimi bəyənir, xoş sözlər bildirirdilər. Təbii ki, bunlar məni həvəsə gətirir və qanadlandırırdı. 1954-cü və 1956-cı illərdə respublikamızda keçirilən olimpiadanın iştirakçısı olmuşam. "Qacaq Nəbi" xalq mahnısını, Cahangir Cahangirovun "Eşqimiz xəzan bilməz bahar olsun" və İldırım Məhərrəmovun "Şuşa yaylağı" mahnısını oxuyurdum. Özfəaliyyət ansamblının rəhbəri tarzən Təyyar müəllim bizi hazırlaşdırırdı, mən muğam da oxuyurdum".

Niyaməddin 8 yaşından oxumağa başlamış və musiqiyə bağlanmışdır. Onun uşaqlıq çağlarında məşhur xanəndələr: Xan Şuşinski (1901-1979), Mütəllim Mütəllimov (1909-1981), Ağabala Abdullayev (1910-1976), Əbülfət Əliyev (1926-1990), Yaqub Məmmədov (1930-2002) İmişliyə konsertlərə və toylara gəlirdilər. Belə sənətkarları dinləyən Niyaməddin muğam sənətinə bağlanırdı. Beləcə o, muğam ifaçısı kimi yetişirdi. Onun xatirələrindən: "Tarzən Həbib Bayramov İmişliyə bayram konsertinə gəlmişdi. Ondan xahiş etdilər ki, mənim oxumağımı dinləsin. Dinlədi, bəyəndiyini bildirdi və mənə dedi ki, sən mütləq Bakıya gəl, səsin yerini alsın, lentə yazılsın, həm də yaxşı tanınarsan, bu imkanlar sən də var".

Niyaməddin 1966-cı ildə Bakıya gəlir. Əhməd Bakıxanovun Teleradio Verilişləri Komitəsində rəhbərlik etdiyi, konsertmeysteri Həbib Bayramov olan xalq çalğı alətləri ansamblının müşayiətilə N.Musayevin ifasında "Bivəfa atar gedər" (musiqi-Əlibaba Məmmədov), "Görmüşəm, sevmişəm, istərəm səni" (bayatı, musiqi-Xan Şuşinski) mahnılarını muğam parçaları ilə təsniflər kimi radio fondu üçün oxuyur.

**Haşiyə:** "1960-cı illərin sonlarında radiodan Niyaməddinin həmin ifalarını dinləyirdim. Gözəl və təsirli ifalardır".

N.Musayev İmişlidə və ətrafda idmançı kimi də tanınmışdı. O, əla güləşçi və İmişlinin futbol komandasında aparıcı qüvvə idi. N.Musayev 1961-1963-cü illərdə Sovet ordusu sıralarında Belarusiyada xidmət edib. Orada əsgərlərdən ibarət özfəaliyyət ansamblı yaradıb, repertuara Azərbaycan, rus və hind mahnılarını daxil edib. Özü Rac Kapurun mahnlıarını da oxuyurmuş. Əsgərlikdən qayıdıb İmişli rayon Mədəniyyət Evində dörd il bədii rəhbər və metodist işləyib. Bütün bu illərdə müğənnilik fəaliyyətindən bir an belə kənar qalmayıb. Niyaməddin 17 yaşından toylarda oxumağa başlayıb. O, əsgərlikdən əvvəl İmişlidə oxuyurdusa, hərbi xidmətdən qayıdandan sonra başqa rayonlarda da tanınaraq toylara dəvət olunurdu. Niyaməddin İmişli, Beyləqan, Bilasuvar, Cəlilabad, Saatlı, Sabirabad, Əlibayranlı və Hacıqabulda sevilən xanəndə kmi qarşılanırdı.

Ona sual verirəm: - Bəstəkarlıq qabiliyyətiniz haçan meydana çıxıb?

-Əsgərlikdən əvvəl də mahnı bəstələyirdim. 1960-cı ildən mahnılarım olub. Məmməd Rahimin "Niyə gəlmədin" sözlərinə üç mahnı bəstələmişdim, "Unutmayaq dedim", bayatılarla "Daşlı qala" hazır idi. 1967-ci ildə Respublika Xalq Yaradıcılığı Evinə və sonra Bəstəkarlar İttifaqına gəldim. Maral xanım mənimlə söhbət apardı. Musiqi müşayiəti olmadan, masada özümə ritm tutaraq oxudum. Dinləyib bəyəndilər. Bəstəkarlar İttifaqının o zamankı katibi Nazim Əliverdibəyovla (1926-1985) görüşməyi məsləhət bildilər. İçərişəhərə getdim. Dəmir darvazalı, həyətli ev idi. Nazim müəllim məni mehriban qarşıladı. Xatırlayıram ki, o zaman həmin ailədə körpə uşaq var idi. Mənzildəki rayalı da xatırlayıram. Mən oxuduqca N.Əliverdibəyov mahnılarıma harmoniya verərək müşayiət etdi və gülümsəyərək dedi ki, gələrsən bunları nota yazarıq. Mən isə getmədim. Bəstəkar İsrail Kərimov İmişliyə gələndə mahnılarımı ona oxudum, o da bəyəndi. Sonralar Bakıya köçüb gəlib sənət fəaliyyətimi davam etdirməklə bərabər, mahnılarım da bəstələnərək sıralandı".

Respublikamızda 1968-ci ildə "Muğam-68" devizi ilə baxış-müsabiqə keçirilirdi. Ölkəmizin bütün bölgələrindən seçilmş gənc xanəndələr, bu sırada N.Musayev və T.Mustafayev (1939-2020) də iştirak edirdi. Hər ikisi "Zabul-Segah" muğamını oxuyurdu. Münsiflər heyətinin üzvləri Əfrasiyab Bədəlbəyli (1907-1976), Cahangir Cahangirov (1907-1976), Şövkət Ələkbərova (1922-1993) və Hacıbaba Hüseynovdan (1919-1993) ibarət idi. Demişdilər ki, "Zabul-Segah"ı İmişlidən gələn oğlan oxusun. Hacıbaba müəllim soruşmuşdu:

-"Muyə" bilirsən?

-Bəli.

-Oxu görək.

Beləliklə, N.Musayevin oxuduğu "Zabul-Segah" muğamı çox bəyənilmiş və o, "Muğam-68"-in qalibi elan edilmişdi. Bəstəkar, əməkdar incəsənət xadimi Əfrasiyab Bədəlbəyli Niyaməddinə Opera və Balet Teatrına gəlməyi və orada çalışmağı məsləhət görmüşdü. O, isə Bakıya 1970-ci ildə gəlmiş və Azərbaycan Dövlət Filarmoniyasına solist-müğənni kimi işə qəbul olunmuşdu. Niyaməddini əməkdar incəsənət xadimi, tarzən-bəstəkar Ağası Məşədibəyov (1912-1984) işə qəbul etdirmişdi. Onun filarmoniyada rəhbərlik etdiyi "Azərbaycan təranələri" xalq çalğı alətləri ansamblının müşayiətilə N.Musayev Şövkət Ələkbərova, Əbülfət Əliyev, Sara Qədimova (1922-2005), Rəhilə Həsənova (1925-2004), Anatollu Qəniyev (1931-1985) və başqa tanınmış müğənnilərlə qastrola gedirdi. Qeyd etməliyik ki, Niyaməddin sənətə qədəm atdığı ilk anlardan bəyənilir və ifası sevilirdi. O, öz sənət səpgisi, öz üslubu, özünəxas boğazları, nəfəsləri, təsirli, ürəklərə sirayət edən oxumağı, məlahətli, könül oxşayan, ecazkar səsi və ürəyi ilə seçilirdi. Niyaməddin həmişə ürəkli müğənni sayılıb, onun ifasını ən böyük sənət adamları bəyənib və təqdir ediblər. Onun səsinin sanki sehri var, oxumağa başlayan kimi dinləyicini öz aləminə, təsir dairəsinə salır. Bu titrək, dəyərli səs öz səviyyəsi, sambalı, şirinliyi ilə 60 ildən çoxdur ki, insanları məftun edir. Niyaməddin sənət aləmində və bütünlükdə cəmiyyətdə mədəni səviyyəsi, səmimiyyəti, yüksək əxlaqı və bir sözlə bütövlüyü ilə də seçilir. Odur ki, sənətimizin korifeyləri, Ş.Ələkbərova, Hacı Məmmədov (1920-1981), Əhsən Dadaşov (1924-1976), Həbib Bayramov (1926-1994), Tükəzban İsmayılova (1923-2008), Elmira Rəhimova və başqaları qastrollarda, konsertlərdə onunla birlikdə çıxış etməkdən məmnun olurdular. Filarmoniyadan mədəniyyət müəssisələrinə, təhsil ocaqlarına, sanatoriyalara, rayonlara və qonşu respublikalara konsert briqadaları göndəriləndə, Şövkət xanım həmişə xahiş edərmiş ki, Niyaməddini də heyətin tərkibinə daxil edin, o çox tərbiyəli adamdır, yaxşı yol yoldaşlığı var və həm də oxumağından zövq alırıq axı...

1976-cı ildə Moskvanın "Melodiya" firmasının Tbilisi filialı Tükəzban İsmayılova, Rəhilə Həsənova və Niyaməddin Musayevin səsini qrammafon valları üçün yazmış və istehsal edərək keçmiş SSRİ-yə yaymışdı.



Niyaməddinin zərif, həssas duyğuları, dərin hissləri, oxuma manerası, səs çalarları daha çox kamançanın müşayiətinə uyğun idi. O, bunu dərk edirdi. Odur ki, 1978-ci ildə filarmoniyada yaratdığı "Röya" vokal-instrumental ansamblın tərkibinə kamança ifaçısı da daxil etmişdi. O, lirik, qəmli, təsirli mahnıları, muğam şöbələrini kamançanın müşayiətilə ecazkar səpkidə oxuyurdu. Əbəs deyil ki, o, dar macalda yığma heyətlə radionun səsyazma evinə gedib "Şahnaz təsnifi"ni radio fondu üçün yazdırarkən onun muğam oxumağını kamançada Abdulla Abdullayev (1942-2004) müşayiət edib. Və bu alətin müşayiətilə müğənninin oxuması vəhdət yaradaraq ortaya təsirli bir ifa çıxarıb. Niyaməddinin mahnılar, təsniflər və muğamlarda etdiyi "melizm"lər, xırdalıqlar, incə nəfəslər bir xanəndə olaraq onun oxuma manerasına, öz ifa tərzinə və öz yaradıcılığına aid idi. Burada bənzərsizlik, tutarlı ifa olduğu üçün də populyarlıq qazanır və sevilirdi. O, oxuduğu bütün mahnıların məzmununu, əhvalını və melodik xəttini düzgün təyin edir.

Oxucular üçün maraqlı olar deyə bidirməliyik ki, Niyaməddin bəy heç bir musiqi təhsili almasa da, gənclik illərindən muğamları yaxşı mənimsəyib. O, 1978-ci ilə qədər toylarımızda muğam üçlüyü ilə də oxuyub. Bir muğam müğənnisi olaraq o, Füzuli, Sədi, Hafiz, Seyid Əzim, Vahid və Mir Mehdinin qəzəllərini muğamların tərkibində bacarıqla işlədib. Bu məqalə üçün müsahibə alarkən o, adı çəkilən şairlərin qəzəllərindən neçəsini əzbər söyləyəndə onun yaddaşına heyran qaldım.

N.Musayev Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmuş, lakin təhsili davam etdirməmişdi. Səbəb özündən böyük qardaşının Niyaməddinin incəsənət sahəsi üzrə təhsil almasının əleyhinə olması idi. Onun fikirlərindən: "Qardaşım İnqilab mənə dedi ki, artistlik sənət deyil, başqa ixtisas seç, özünə yaxşı sənət qazan". Niyaməddin sənədlərini geri alarkən rektor Rahib Hüseynov ona deyib: "Qal burada oxu, böyük istedadın var, sən bu sahədə parlaya bilərsən". Niyaməddin sənədlərini Xalq Təsərrüfatı İnstitutuna verir, qəbul olunur və buranı uğurla bitirir. Yeri gəlmişkən bildirək ki, Rahib müəllimin fikri özünü doğrultdu, Niyaməddin musiqi aləmində, tanındı və parladı. Həm də hər kəsin tale məsələsi var axı. Niyaməddin musiqi sənəti üçün doğulmuşdu, burada özünü tapmalı, təsdiq etməli idi və belə də oldu.

"Şahnaz təsnifi" dedikdə düşünürəm ki, bunun üçün ayrı mövzu açılmalı, geniş məqalə yazılmalıdır. Və bunu etmək fikrindəyəm. Bu təsnif N.Musayevin həyatında, sənət fəaliyyətində dönüş yaratdı, geniş şəkildə tanınması, şöhrət tapması və ümumxalq məhəbbəti qazanmasında xüsusi əhəmiyyət daşıdı. "Şahnaz təsnifi"nin sözləri və musiqisi Bəhram Nəsibovundur (1942-1998). O, "Şahnaz təsnifini Tükəzban xanım üçün yazmışdı. Həmin dövrdə T.İsmayılovanın konsert proqramında "Şahnaz" əsas yer tuturdu və o, həmin muğamın ən mahir ifaçısı sayılırdı. Təsnifin ilk ifaçısı xalq artisti Tükəzban İsmayılova, davamçısı Təvəkkül Musayev (1938-2017) olub. Adları qeyd olunan müğənnilərin ifasında təsnif oxunanda, arada "Şahnaz" muğamına da yer verilib. Təsnif bu şəkildə televiziya və radioda yayımlansa da, effek yaratmamış, diqqəti cəlb etməmiş və zövqə hakim kəsilməmişdi. Niyaməddin düşünülmüş şəkildə bu təsnif üzərində əsl yaradıcılıq işi aparıb.

***(Davamı var)***

***Əhsən*** Rəhmanlı
***tədqiqatçı,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***